Peşə təhsili və insan kapitalı. Cild 9, №2, 2026, s.113-116

# İLMƏ-İLMƏ QURULAN ÜMİDLƏR



**Təranə Ağamalıyeva,**
*18 nömrəli Bakı Peşə Məktəbinin*
*ixtisas fənn müəllimi*
*e-mail: taranagamaliyeva@gmail.com*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3081*

*Məqalədə bir təcrübəli və praktik peşə təhsili işçisi kimi, Azərbaycan xalçaçılığının tarixi inkişaf mərhələləri, onun milli mədəniyyətimizdə tutduğu yer və müasir dövrdə xalçaçılıq ənənələrinin qorunması və yaşadılması istiqamətində görülən işlər haqqında məlumat verməyi məqsədəuyğun hesab edirəm. Eyni zamanda respublikamızın cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən peşə məktəblərində "xalçaçılıq" ixtisasının tədrisinin sosial və tərbiyəvi əhəmiyyətini araşdıraraq, xüsusilə hazırda çalışdığım 4 saylı Qadın Cəzaçəkmə müəssisəsindəki 18 nömrəli Bakı Peşə Məktəbində həyata keçirilən kadr hazırlığı da bu ixtisasın nümunəsində məhkum qadınların peşə bacarıqları qazanması, yaradıcılıq imkanlarının inkişafı və bununla da onların cəmiyyətə yenidən inteqrasiyası məsələlərini müxtəlif mənbələrə istinad edərək izah etməyə çalışmışam. Məqalədə, həmçinin uzunillik təcrübəmdən irəli gələrək xalçaçılığın yalnız sənət növü deyil, həm də insan həyatında ümid və yeni başlanğıc yaradan mühüm fəaliyyət sahəsi olduğunu vurğulamışam.*

**Azərbaycan xalçaçılığı və peşə təhsili: cəzaçəkmə müəssisəsində yeni həyatın başlanğıcı**

Azərbaycan xalçaçılığı dekorativ-tətbiqi sənətin ən qədim və ən mükəmməl sahələrindən biri hesab olunur. Xalçaçılıq yalnız bir sənət növü deyil, həm də xalqımızın tarixini, mədəniyyətini, estetik zövqünü və dünyagörüşünü özündə əks etdirən milli sərvətdir. Bu sənət sahəsi bir-biri ilə sıx bağlı olan müxtəlif fəaliyyətlərin – xammalın əldə olunması, boyaqçılıq, toxuculuq, rəssamlıq və kompozisiya bacarıqlarının vəhdəti nəticəsində formalaşır.

Qədim dövrlərdə xalçaçılıq yalnız əl əməyinə əsaslandığı üçün bu sənətin sirləri ustalardan şagirdlərə, nəsildən-nəslə ötürülürdü. Xalça toxumaq təkcə texniki bacarıq deyil, həm də böyük səbr, diqqət və yaradıcılıq tələb edən bir sənət idi. Ustalar bilik və təcrübələrini şagirdlərə ötürərək bu sənətin davamlılığını təmin edirdilər. Beləliklə, xalçaçılıq Azərbaycan xalqının mədəni irsinin ayrılmaz hissəsinə çevrilmişdir.

Müstəqil Azərbaycanın inkişafı ilə birlikdə milli incəsənətin digər sahələri kimi, xalçaçılıq da dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bu gün ölkədə xalça sənəti ənənələrinin qorunması, inkişafı və dünya miqyasında tanıdılması istiqamətində mühüm addımlar atılır. 2004-cü il 7 dekabr tarixində "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Qanunun qəbul edilməsi və 2005-ci ildə həmin Qanunun tətbiqi barədə Fərmanın imzalanması bu sahənin inkişafına dövlət dəstəyinin bariz nümunəsidir. Bundan əlavə, Azərbaycan xalçalarının təbliği məqsədi ilə Bakının Dənizkənarı Milli Parkı ərazisində nadir memarlıq üslubuna malik "Azərbaycan xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi" inşa olunmuşdur. Hazırda "Azərbaycan Milli Xalça Muzeyi" adlanan bu

muzey Azərbaycan xalçaçılıq məktəblərinin zəngin ənənələrini nümayiş etdirir və bu sənətin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Xalçaçılara diqqət və hörmət əlaməti olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 noyabr 2016-cı il tarixli Sərəncamı ilə hər il 5 may tarixi **"Xalçaçı günü"** peşə bayramı kimi qeyd edilir.

**Azərbaycan xalçaçılığının inkişaf mərhələləri**

Tarixi əsrlərlə ölçülən Azərbaycan xalçaçılığı müxtəlif inkişaf mərhələlərindən keçmişdir. Elmi mənbələrə görə, xalça sənətinin tarixi e.ə. II minilliyə qədər gedib çıxır. Azərbaycanın əlverişli coğrafi-iqlim şəraiti və heyvandarlığın inkişafı xalçaçılığın geniş yayılmasına zəmin yaratmışdır. Xalça sənətinin inkişafı, əsasən dörd mərhələyə bölünür:

***Birinci mərhələ*** xalça sənətinin ilkin dövrü hesab olunur. Bu dövrdə əsasən palaz və cecim (xovsuz xalça) kimi sadə xalça məmulatları toxunulurdu. Bu nümunələr, əsasən bəzəksiz, birrəngli və sadə quruluşa malik idi. Sonralar təbii rəngli yunlardan istifadə edilərək zolaqlı palazlar toxunulurdu.

***İkinci mərhələdə*** xalça sənətində həm texniki, həm də bədii inkişaf müşahidə olunur. Kilimtoxuma üsulunun yaranması xalça üzərində sadə ornament və naxışların işlənməsinə imkan yaratdı. Bu dövrdə palaz və kilimlərdən həm məişətdə, həm də yaşayış məkanlarının bəzədilməsində geniş istifadə edilirdi.

***Üçüncü mərhələdə*** xalçaçılıqda mürəkkəb dolama texnikası yayılmağa başladı və varni, şəddə, zili, sumax kimi toxuma üsulları yarandı. Bu texnikalar xalça ornamentlərinin daha zəngin və mürəkkəb kompozisiyalarla işlənməsinə şərait yaratdı. Xüsusilə Qarabağ, Quba, Şirvan və Naxçıvan bölgələrində toxunulan peşəkar xalçalar özünəməxsus bədii xüsusiyyətləri ilə seçilirdi.

***Dördüncü mərhələ*** isə düyünləmə üsulu ilə toxunan xovlu xalçaların inkişaf dövrüdür. Bu üsul xalça sənətində daha mürəkkəb kompozisiyaların yaradılmasına imkan vermişdir. Eyni zamanda dəmir qayçı və xüsusi bıçaq kimi alətlərin istifadəsi xalçatoxuma prosesini daha da təkmilləşdirmişdir.

**Xalçaçılıq və peşə təhsilinin sosial əhəmiyyəti**

Xalçaçılıq yalnız bir sənət sahəsi deyil, həm də insanın zəhmətə münasibətini formalaşdıran mühüm fəaliyyət növüdür. Bu baxımdan əmək tərbiyəsi və peşə təhsili cəmiyyət üçün böyük əhəmiyyət daşıyır. Peşə təhsili insanlara müəyyən bir sahədə ixtisaslaşmaq, əmək bazarında yer tutmaq və müstəqil həyat qurmaq imkanı yaradır. Məktəb isə müasir cəmiyyətdə yalnız bilik verilən müəssisə deyil, həm də insanın şəxsiyyət kimi formalaşdığı mühüm sosial mühitdir. Burada təhsil alan şagird və tələbələr yalnız nəzəri bilikləri deyil, həm də həyat bacarıqları əldə edirlər. Bu baxımdan cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən peşə məktəblərinin rolu xüsusilə əhəmiyyətlidir. Belə təhsil müəssisələri məhkumların yenidən cəmiyyətə inteqrasiyası və gələcək həyatlarını qurması üçün mühüm imkanlar yaradır. 4 saylı Qadın Cəzaçəkmə müəssisəsinin daxilində fəaliyyət göstərən ***18 nömrəli Bakı Peşə Məktəbi*** bu istiqamətdə uğurlu nümunələrdən biridir. Məktəbdə müxtəlif peşə ixtisasları üzrə tədris aparılır və məhkum qadınlara əmək bacarıqları öyrədilir. Bu ixtisaslardan biri də xalçaçı peşəsidir.

Məktəbdə "xalçaçı" ixtisası 1996–1997-ci tədris ilindən fəaliyyətə başlamışdır. İlk dəfə bu sənətin incəliklərini böyük sevgi ilə tələbələrinə Namə Orucova tədris etmişdir. Bu ixtisasın yaradılması ilə paralel olaraq 4 saylı Cəzaçəkmə müəssisəsində xalça sexi də fəaliyyətə başlamışdır ki, burada da tələbələr məktəbdə əldə etdikləri nəzəri bilikləri praktiki fəaliyyətlə birləşdirərək xalçatoxuma bacarıqlarını inkişaf etdirirlər.

Müəssisənin dərs prosesinə məktəb rəhbərliyi daim nəzarət edir, tələbələrin əl işləri ilə maraqlanır və yaranan çətinliklərin aradan qaldırılması üçün lazımi dəstəyi göstərir.



**Qaraxalatlı qadınların al-əlvan dünyası**

Məlumdur ki, 18 nömrəli Bakı Peşə Məktəbinin “xalçaçı” qrupunda təhsil alan tələbələr məhkum qadınlardır. İlk baxışda “xalça sənəti” ilə “məhkumluq” anlayışını bir arada təsəvvür etmək çətin görünsə də bu, reallıqdır. Müxtəlif yaş qruplarına aid olan qadınlar burada həm nəzəri, həm də praktiki dərslər vasitəsilə xalçatoxuma sənətini çox həvəslə öyrənirlər.

Yeni dərs ilinin əvvəlində bir çox tələbə tərəddüd edir, çünki xalça dəzgahı – hana ilə işləmək onlara çətin görünür. Lakin zaman keçdikcə onlar bu alətlərə alışır və xalçaçılığın incəliklərini öyrənirlər. Hər ilmə və hər düyün onların həyatına yeni bir mənəvi rəng qatır. Xalçanın hazırlanması əvvəlcə bədii tərtibatın (çeşninin) işlənilməsi, daha sonra isə həmin çeşninin ilmə-ilmə toxunması ilə həyata keçirilir. Bu prosesdə tələbələr öz ideya və düşüncələrini ifadə etmək imkanı da qazanırlar. Məhkumluq həyatı yaşamalarına baxmayaraq qadınlar xalçalarında Vətən sevgisini, milli dəyərlərə bağlılıqlarını və hörmət hislərini əks etdirirlər. Ümummilli lider Heydər Əliyev tərəfindən səsləndirilmiş *“Mən fəxr edirəm ki, azərbaycanlıyam!”* ifadəsi tələbələrin toxuduğu xalça üzərində öz əksini tapır. Eyni zamanda üçrəngli dövlət bayrağımız, milli rəmzlər və digər vətənpərvərlik motivləri də toxunulan nümunələrdə yer alır.




Tələbələr, həmçinin 44 günlük Vətən müharibəsi zamanı qazanılan qələbəni və ölkənin ərazi bütövlüyünü simvolizə edən ölkə başçısının *“Dəmir yumruq”* rəmzini toxuduqları xalça üzərində əks etdirirlər. *“Xarıbülbül”* təsviri isə Azərbaycan musiqi beşiyi olan qədim Şuşa şəhərinin azadlığının bədii ifadəsinə çevrilir.







Ölkədə baş verən mühüm hadisələr və tədbirlər də xalça yaradıcılığında öz əksini tapır. Məsələn, “COP29 və *“Yaşıl dünya naminə həmrəylik ili”* mövzusuna həsr olunmuş xalça buna nümunədir. Bundan əlavə, həndəsi və nəbati ornamentli xalçalar da tələbələrin daxili aləmini, duyğularını və dünyagörüşünü rəngarəng şəkildə ifadə edir.




Xalçatoxuma prosesi buradakı məhkum qadınlar üçün yalnız peşə öyrənmək deyil, həm də mənəvi rahatlıq və özünüifadə vasitəsidir. Onlar toxuduqları xalçalarda xatirələrini, ailələrini və doğma yurdlarını yaşadırlar. Bəzən ilmələrə baxarkən sanki övladlarının saçlarını tumarlayırmış kimi duyğulanırlar.




**Hana azadlıqda gözəldir**

Məhkum qadınlar xalça işinə böyük həvəslə yanaşırlar. Bu fəaliyyət onların həm faydalı əməklə məşğuliyyətini artırır, həm də psixoloji baxımdan onlara müsbət təsir göstərərək gərginliklərini azaldır. "Xalçaçı" qrupunda təhsil alan tələbələr yalnız xalça toxumağı deyil, həm də xalçanın bədii tərtibatını hazırlamağı da öyrənirlər. Bu isə onların yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək edir.

Məktəbdə təhsil alan tələbələrə cəmiyyətə yararlı vətəndaş kimi qayıtmaları üçün geniş imkanlar yaradılır. Xalçaçılıq isə bu istiqamətdə atılan mühüm addımlardan biridir. Tələbələrdən biri bu barədə belə deyir: "Azadlığa çıxandan sonra evimdə hana quracağam və xalçaçılıq peşəsini davam etdirəcəyəm". Digər bir tələbə isə söyləyir: "Əgər azadlıqda olduğum zaman xalçaçı peşəsi ilə məşğul olsaydım, bəlkə də bu gün bu məhkum həyatını yaşamazdım". Nə gözəl hislər, təmiz və ülvi duyğular, arzular... Eyni zamanda səmimi və gecikmiş etiraflar... Ancaq heç vaxt gec deyil: həyata qayıtmaq, onu yenidən başlamaq. Arzu edirik ki, bu hislər gerçəkləşsin və xanımlarımız həyatda yalnız ANA kimi qalsınlar.

**Nəticə.** Qədim ənənələrə əsaslanan xalçaçılıq müasir dövrdə də öz aktuallığını və mədəniyyətimizdəki önəmli yerini qoruyub saxlayır. Bugünədək gördüyümüz saysız-hesabsız xalça nümunələri özündə bir hekayə daşıyır. Hər bölgənin xalçası həmin yerin tarixini, təbiətini və insanlarının həyat tərzini əks etdirir. Lakin bəlkə də çoxumuz Azərbaycan qadınının həbsxanada xalça toxuduğunu təsəvvür etməmişik. Hananın qarşısında oturan qadınların əlləri ilə toxunan xalçalar göstərir ki, sənət insan həyatında yeni ümidlər yarada bilər. Hər ilmə sanki keçmişlə gələcək arasında qurulan bir körpüdür. Xalça toxuyan bu qadınlar isə həmin körpüdən keçərək həyatlarında yeni səhifə açmağa çalışırlar.

**İstifadə edilmiş ədəbiyyat**

1. V.Muradov. Azərbaycan xalçaları. 2021.
2. Xalçaçı (dərs vəsaiti). Bakı, 2011.